# Ali Məqamlı Rəhbər yeni təyinatla bağlı sərəncam imzaladı - 22 /Jul/ 2014

İslam İnqilabının Ali Məqamlı Rəhbəri Həzrət Ayətullah Xamenei cənab Məhəmməd Səidikiyanın növbəti 5 illik müddətə Yoxsul Əhaliyə Dəstək Fondunun sədri təyin olunması barədə sərəncam imzaladı.

Sərəncamın tam mətni:

Mərhəmətli və Bağışlayan Allahın adı ilə!

Cənab Məhəmməd Səidikiya,

Cənab Məhəmməd Fərzəndənin Yoxsul Əhaliyə Dəstək Fondunun sədri postunda 3 dəfə uzadılmış səlahiyyət müddətinin başa çatdığını nəzərə alaraq ötən 15 ildə fondun fəaliyyətində koordinasiyanın təmin olunması, nizam-intizamın yaradılması və müvafiq islahatların aparılması, habelə sözügedən qurumun səmərəliliyinin, imkan və potensialının yüksəldilməsi  istiqamətində göstərdiyi dəyərli xidmətlərə görə ona öz təşəkkür və qədirdanlığımı bildirir və sizi növbəti 5 il müddətinə Yoxsul Əhaliyə Dəstək Fondunun sədri vəzifəsinə təyin edirəm.

Ümidvaram ki, məsuliyyətliliyiniz, idarəçilik səriştəniz, əmanətdarlığınız və qətiyyətiniz sayəsində bu qurumun keşiyində duracaq, fondun ölkənin beytül-malına aid bütün imkanlarından və potensialından ən gözəl şəkildə istifadə edərək dövlətin başlıca siyasətləri, elan edilmiş fəaliyyət prioritetləri çərçivəsində yoxsul əhaliyə layiqincə xidmət edəcək, onların maddi-mənəvi həyat səviyyəsinin yüksəldilməsinə, fondun qarşıya qoyduğu ali hədəflərin gerçəkləşməsinə nail olacaqsınız və bu işdə Allah-Taala sizdən Öz mənəvi dəstəyini əsirgəməyəcək.

Seyid Əli Xamenei

31 tir 1393

22 iyul 2014

Materialdan istifadə edərkənWWW.LEADER.İRsaytına istinad zəruridir